**UOT781.**

**Rəfiqə Quluzadə**
**Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyası**
**Doktorant**
**E-mail: rafigaguluzade@gmail.com**

# AZƏRBAYCAN İFAÇILARININ REPERTUARINDA A.N.SKRYABININ FORTEPİANO ƏSƏRLƏRİNİN TƏFSİRİ

**Xülasə**: Təqdim olunan məqalədə Azərbaycan ifaçılarının repertuarında görkəmli rus bəstəkarı A.N.Skryabinin fortepiano əsərlərinin təfsiri məsələlərinə diqqət yetirilmişdir. Bundan irəli gələrək, Azərbaycan fortepiano məktəbi tarixində pedaqoji repertuarda Skryabin əsərlərinin təbliğatçısı kimi A.Yermolayevanın və N.Usubovanın rolu vurğulanmışdır. Müasir dövr Azərbaycan ifaçılıq sənətində isə Xalq artistləri və görkəmli pianoçular olan F.Bədəlbəyli və Y.Axundovanın konsert repertuarında Skryabinin fortepiano əsərlərinin təfsiri işqlandırılmışdır.

**Açar sözlər**: fortepiano musiqisi, ifaçılıq, Skryabin, Fərhad Bədəlbəyli, Yeganə Axundova

Görkəmli rus bəstəkarı Aleksandr Nikolayeviç Skryabinin fortepiano musiqisi dünya pianoçularının repertuarında özünə geniş yer tapmışdır. Bəstəkarın fortepiano üçün sonataları, poemaları, xüsusən miniatürləri yaradıcılıq təkamülünü özündə əks etdirərək, lirik və dramatik obrazların ifadəsidir. İlk öncə onu qeyd etməliyik ki, A.N.Skryabin gözəl pianoçu olub, öz əsərlərinin əvəzsiz və bənzərsiz təfsirçisi idi. Bəstəkarın ifa üslubunun müəyyən xüsusiyyətləri onun fortepiano yaradıcılığında öz parlaq təcəssümünü tapmışdır. Hər növ zahiri estrada palitrasından uzaq olan özünəməxsus texnika, sərbəst uçucu ritm və ilhamlı ifa tərzi, melodik gözəllik Skryabinin çalğısının özəl xüsusiyyətlərini təşkil edirdi. Bəstəkarın müasirləri onun çalğısının gözəl və yumşaq səs xüsusiyyətlərini, barmaqlarının yüngüllüyü və səlisliyini vurğulayaraq, bu çalğıda Skryabinin mənəvi sələfi olan Friderik Şopenin oxşarlığını qeyd edirdilər. Deyilənə görə, Skryabinin ifası çox zaman improvizasiya təsiri bağışlayır.

A.N.Skryabinin öz çalğısı Velte-Minyon aparatına köçürülüb saxlansa da, bu çalğı tam təkmilləşmiş effektə malik deyildir. Bu aparat səsin keyfiyyətini bir qədər kobudlaşdırır və pedal haqqında yanlış təəssürat yaratmış olur. Belə köçürmənin mənfi cəhətlərinə baxmayaraq bəstəkarın bəzi əsərlərinin müəllif təfsirində gözəl ifasının üstün cəhətləri qabarıq surətdə nəzərə çarpır. Skryabin fortepiano əsərlərinin estetik prinsiplərini və spesifikliyini, müəllifin təfsiri, ümumilikdə ifa tarixi haqqında obyektiv mühakiməni irəli sürmək – ifaçılar tərəfindən bu

əsərlərin "bədii dərk edilməsi" yolunu asanlaşdıra bilər. Bundan əlavə, Skryabinin ifaçılıq sənəti, estetik maraq yaradaraq, ifaçılıq yeniliklərini daha qabarıq ifadə edir. Skryabinin ifaçılıq sənəti haqqında dolğun və əsaslandırılmış fikir bir sıra məlumatların sintezində əldə edilə bilər:

1. Skryabinin ifasının mövcud mexaniki qeydləri;
2. Müəllifin dinamik göstərişləri;
3. Repertuar seçiminin xüsusiyyətləri;
4. İfaçılıq xüsusiyyətləri haqqında öz qeydləri;
5. Bəstəkarın pedaqoji qeydləri haqqında məlumatlar;
6. Müasirlərinin xatirələri

A.N. Skryabinin fortepiano musiqisi müxtəlif dövrlərdə yaşayan və müxtəlif millətləri təmsil edən pianoçuların nəzər-diqqətini həmişə özünə cəlb etmişdir. Böyük intensiv inkişaf yolunu keçən Azərbaycan fortepiano məktəbinin nümayəndələrinin ifaçılığında da bəstəkarın musiqisi özünə geniş yer tapmışdır.

Burada kiçik bir haşiyə çıxaraq çox maraqlı bir faktı qeyd etmək yerinə düşərdi. Azərbaycanın professional musiqi təhsili tarixində dərin iz qoyan Antonina Nikolayevna Yermolayeva XIX əsrin 90-cı illərinin başlanğıcında Moskva konservatoriyasında S.Raxmaninov və A.Skryabinlə bir dövrdə təhsil almışdır. [2; s.9]

Digər gözəl bir pianoçu, Azərbaycan Konservatoriyasının ilk rektoru və 1921-23-cü illər ərzində Fortepiano sinfinin rəhbəri olmuş Matvey Leontyeviç Presman da Skryabinlə eyni dövrdə Moskva Konservatoriyasında təhsil almışdır [2; s.13].

Ötən əsrin 30-cu illərində Azərbaycanda Sankt-Peterburq pianoçuluq məktəbinin ənənələrini davam etdirən pianoçu kimi tanınan Mayor Rafailoviç Brennerin repertuarında Skryabinin əsərlərinə müəyyən yer verilirdi. Konsert fəaliyyəti çox məhsuldar olan bu pianoçunun ifasında L.V.Bethoven, F.Listin əsərləri ilə yanaşı A.N.Skryabinin fortepiano əsərlərinin ustalıqla və cazibədar tərzdə ifa etməsi vurğulanırdı.

Azərbaycan fortepiano məktəbinin ikinci nəslinin nümayəndəsi, Əməkdar incəsənət xadimi Nigar Usubova öz pedaqoji repertuarında rus bəstəkarlarının fortepiano musiqisinə böyük önəm verən pedaqoq olmuşdur. Nigar Usubova pedaqoji repertuarında S.İ.Taneyev, A.S.Arenski, P.İ.Çaykovskinin əsərləri ilə yanaşı, A.N.Skryabinin əsərlərinə də müəyyən yer verirdi. Təsadüfi deyildir ki, vaxtilə N.Usubovanın sinfində təhsil alan, onun yetirməsi- Xalq artisti, pianoçu Yeganə Axundova artıq püxtələşmiş bir ifaçı kimi öz yaradıcılığının kamillik çağında repertuarına Skryabinin "Prometey" ("Alov poeması") əsərini daxil etmişdir. Bu simfonik poemada məlum olduğu kimi simfonik orkestrlə yanaşı, solo fortepiano və xor (sözsüz oxuma) iştirak edir. Əsər ilk dəfə Bakıda 29 mart 2019-cu il tarixində Azərbaycan Dövlət Akademik Filarmoniyasında "Prometey

Bakıda" adlı konsert proqramında təqdim edilmişdir (Bu haqda daha sonra ətraflı bəhs ediləcəkdir).

Azərbaycan pianoçuluq sənəti tarixində A.N.Sktyabinin fortepiano musiqisinin ən məhsuldar təbliğatçıları və təfsirçilərindən biri SSRİ və Azərbaycan Respublikasının Xalq artisti Fərhad Bədəlbəyli olmuşdur. Fərhad Bədəlbəyli pianoçu kimi ilk uğurlarını qazanarkən, artıq onun repertuarına Skryabinin əsərləri daxil edilmişdi. 1968-ci ildə gənc pianoçu dünyanın 23 ölkəsindən 56 iştirakçının qatıldığı Lissabon şəhərində keçirilən pianoçuların Vianna da Mota adına IV Beynəlxalq müsabiqəsində uğurla çıxış edərək, Qran-Pri mükafatına layiq görülmüşdü. Bu, çox böyük və ciddi bir sınaq imtahanı idi. Çox güclü iştirakçılar və nüfuzlu münsiflər heyətinin çıxış etdiyi dörd mərhələdən ibarət bu müsabiqənin ikinci mərhələsində F.Bədəlbəyli L.V.Bethovenin 32№li As-dur sonatası, F.Şopenin 23№li, F.Listin f-moll (transtendent), K.Debüssinin C-dur etüdləri ilə yanaşı, A.Skryabinin cis-moll Etüdünü ifa etmiş və böyük uğur qazanmağa nail olmuşdu.

Fərhad Bədəlbəyli artıq Moskva Dövlət Konservatoriyasının aspiranturasında təhsil aldığı illərdə qastrol səfərlərinə dəvət edilərək, konsertlərdə zəngin və rəngarəng proqramla çıxış edirdi. O, 1970-ci ilin aprel ayında Portuqaliyada qastrola dəvət edilir. Burada keçirilən konsertdə Y.Haydn, R.Şuman, S.Raxmaninov, D.Şostakoviç, Q.Qarayev, B.Bartok, K.Sen-Sansın əsərləri ilə yanaşı, onun repertuarında A.Skryabinin prelüdləri də var idi. Pianoçu bu konsertlərdə Skryabinin op.16 silsiləsindən 1, 4, 5, op.15 silsiləsindən 1,2 və op.11 silsiləsindən 11, 14, 22 №li prelüdləri ifa edir [1; s.123].

Fərhad Bədəlbəyli 1971-ci ilin 13-22 avqust tarixində Sovet-Fin dostluq həftəsi çərçivəsində Helsinki şəhərindəki konsertində də A.Skryabinin əsərlərini ifa etmişdir. F.Bədəlbəylinin ifasında Skryabinin fortepiano üçün əsərləri onun konsert repertuarının mühüm tərkib hissəsinə çevrilmiş, onların ifa "çoğrafiyası" getdikcə daha da genişlənmişdir. Helsinki səfərindən az sonra İtaliya səfərindəki konsertlərdə (1972-ci il) pianoçu proqrama yenə A.Skryabinin əsərlərini daxil etmişdir. On il sonra 1982-ci ilin noyabrında F.Bədəlbəyli Moskva Böyük Teatrının "Bethoven zalı"nda S.Raxmaninov və A.Skryabinin prelüdlərini ifa etmişdir [ 1; s.140]. 2007-ci ildə F.Bədəlbəylinin Parisdə keçirilən solo konsertində Skryabinin prelüdləri pianoçunun ifasında böyük maraqla qarşılanmışdır.

F.Bədəlbəylinin ifa repertuarında A.Skryabinin prelüdlərinə belə önəm verməsi, ümumiyyətlə, ilk növbədə pianoçunun rus fortepiano musiqisinə sevgisindən irəli gəlir. İfaçı Skryabinin "24 prelüd" silsiləsindən 11, 14, 22-ci prelüdləri ifa etmişdir. № 11- H-dur (Moskva, 1895), № 14-es-moll (Drezden, 1895) və № 22-g-moll (Paris, 1896) prelüdləri Skryabin tərəfindən müxtəlif ölkələrdə və şəhərlərdə bəstələnmişdir. Prelüdlərin hər biri müəyyən emosional ovqatı əks etdirir. F.Bədəlbəyli bir ifaçı kimi bu ovqatı, hər miniatürün daxilindəki hisslər

spektrini çox gözəl əks etdirə bilmişdir.

Təbiidir ki, Skryabinin prelüdləri keçmiş Sovetlər məkanında S.Rixter, Q. Neyqauz, M.Pletnyov və digər pianoçuların təfsirində maraqlı tərzdə səslənmişdir.

F.Bədəlbəyli üçün Skryabinin prelüdlərinin hərəsi bir dünyadır. Bu ifada miniatürlər sanki bir rəssam fırçası ilə rəsm edilir, emosiyaların zəngin spektri canlandırılır. Prelüdlərin hər birində hər səs yeni çalarlar kəsb edir. F.Bədəlbəyli Skryabinə xas pianizmi çox gözəl hiss edir. Pianoçunun ifasında Skryabinin hər hansı bir miniatürünü dinlədikdə belə artıq ifaçının bəstəkarın içdünyasına, daxili aləminə gözəl bələd olmasının şahidi oluruq. Skryabinin op.15 silsiləsindən 1№li A-dur prelüdü buna gözəl nümunə ola bilər. Bu prelüd F.Bədəlbəylinin repertuarında ən çox ifa olunan miniatürlərdən biridir. A-dur prelüdü pianoçunun 1970-ci ildə Portuqaliyada keçirilən konsertində ifa olunmuşdur.

Skryabinin op.15 silsiləsini açan bu prelüdü 1895-ci ildə Moskvada bəstələnmişdir. Silsilədə cəmi beş prelüd vardır. Andante tempində ifa olunan A-dur prelüdü çox kiçik olub, cəmi 31 xanədən ibarətdir (Skryabin.op.15-pdf)-scriabin.ru/notes.html).

Onu da qeyd etməliyik ki, A-dur prelüdü F.Bədəlbəylinin ifasında “Azərbaycanfilm” kinostudiyasının 1981-ci ildə çəkdiyi “Nəğməkar torpaq” musiqili filmində səslənir (1236- “Nəğməkar torpaq”- youtube.com/wathc?v=CgafFLİwGnc).

F.Bədəlbəylinin ifasında dinlədiyimiz op.15 A-dur prelüdü melodik ifadəliliyi və incəliyi ilə seçilir. İfaçı bu əsəri bədii baxımdan romantik tərzdə, özünəməxsus tembr boyaları ilə ifa etmişdir. İfa zamanı Skryabin ritminin və melodikasının özünəməxsusluğu, ifadəli frazalaşma özünü qabarıq şəkildə biruzə verir.




**Musiqi nümunəsi 1.**

F.Bədəlbəylinin çalğısını diqqətlə izlədikcə, çalğıdakı işıqlı boyalar, barmaqların klavişlər üzərində səlis qoyuluşu nəzər-diqqəti cəlb edir. Pianoçunun ifasında bu prelüd sanki Skryabinin "fortepianonun şairi" olmasını bir daha təsdiqləyir. Çalğıdakı Skryabinin musiqisinə xas olan ritmik sərbəstlik, klavişlərə toxunma manerası nəticəsində meydana çıxan yumşaq səslənmə, rubato ifası - bütün bunlar F.Bədəlbəylinin rus bəstəkarının musiqisini dərindən, daxilən qavramasının sübutudur.

F.Bədəlbəyli A.Skryabinin prelüd silsilələrindən hər əsərdən üç prelüdü seçərək (op.16, 15, 11) maraqlı şəkildə qruplaşdırır. Seçim özü də çox maraqlı qurulur. Prelüdlər üçlüyündə obraz, xarakter, temp, dinamika təzadı özünü göstərir.

Skryabinin op.11 silsiləsindən ("24prelüd") 11, 14, 22-ci prelüdləri qruplaşdıraraq, sanki silsilə daxilində silsilə yaradır. 11№li H-dur prelüdü romantik ifa tərzi ilə fərqlənir. Fərhad Bədəlbəyli bu prelüdün ifasında sol əlin melodikliyinə daha çox diqqət yetirir. 14№li es-moll prelüdü dramatik obrazın səciyyəsidir, bütün prelüd sanki basdakı kvarta çağırışından yaranır. Prelüdün qeyri-adi ölçüsü 15/8 onun həyəcanlı xarakterini özündə əks etdirir.

**Musiqi nümunəsi 2.**




Presto tempi prelüdün sonuna kimi möhtəşəm, təlatümlü obrazın canlandırılmasına dəstək olur. Dolğun faktura, güclü fortedən fff-ya doğru inkişaf üsyankar və həyəcanlı obrazları, coşub-daşan tufanlı dəniz obrazını yaradır.

Op.11 silsiləsindən 22№li prelüd g-moll isə 14№li es-moll prelüdü ilə kəskin təzad təşkil edir. Ağır lento tempində ifa edilən bu prelüd üçün rubato çalğısı səciyyəvidir. Sanki prelüd simli kvartet üçün nəzərdə tutulmuşdur. Burada başlanğıc melodiya skripka, orta hissə isə violonçel ahəngini xatırladır.

F.Bədəlbəyli Skryabinin fortepiano əsərlərini ifa edərkən, onun fakturasının yeni cəhətlərini, artikulyasiya, pedalizasiya, ritmin ifaçılıq şərhini çox dəqiq-

liklə vermişdir. Pianoçunun ifasında xüsusən prelüdləri dinləyərkən nəqletmənin xüsusi növünü hiss edirik. Ümumiyyətlə, Skryabinin fortepiano prelüdləri üçün hansısa fikrin açıq qalması, nəyinsə sona qədər deyilməməsi səciyəvidir. Yəni Skryabin mənanı sona çatdırmır, ona işarə edir. Təbiidir ki, prelüdlərin hər biri Skryabinin üslubuna kiçik bir "pəncərə"dir. Bu "pəncərə"dən hər bir ifaçı özünəməxsus şəkildə boylanaraq, müəyyən nəyisə görməyə çalışır. Skryabinin musiqisini interpretasiya edən pianoçu yeni faktura vasitələrini mənimsəyərək öz pianoçuluq arsenalını zənginləşdirməklə yanaşı, assosiativ təfəkkürünü də inkişaf etdirir. Skryabinin prelüdlərindəki lakonizm, nəqletmənin aforistik yığcamlığı F.Bədəlbəylinin təfsirində son dərəcə həssaslıqla öz əksini tapır. Ümumiyyətlə, musiqişünaslıq tarixində Skryabinin fortepiano prelüdlərinin obrazları çox vaxt Çexovun ədəbi əsərlərinin, Levitanın rəsmlərinin romantik əhval-ruhiyyəsi ilə müqayisə edilir. Təbiidir ki, bəstəkar öz mühitinin ab-havasını öz əsərlərində əks etdirməyə bilməzdi.

A.Skryabinin musiqisinin təfsirçilərindən biri olan V.Sofronitski bəstəkarın həqiqi möhtəşəmliyini onun musiqisinin dörd xüsusiyyətində görürdü ki, bu "həyat, işıq, mübarizə və iradədir". F.Bədəlbəyli Skryabin yaradıcılığının bu xüsusiyyətlərini özündə əks etdirən prelüdləri öz repertuarına daxil etmişdir.

F.Bədəlbəyli Skryabinin prelüdləri sırasındakı bəzən ən kiçik prelüdü seçib ifa etmişdir. op.16 silsiləsindən 4№li es-moll prelüdü buna nümunədir. Prelüd cəmi 12 xanədən ibarətdir. Lento tempində, sotto voce piano ahəngində ifa edilir. 12 xanədən ibarət olmasına baxmayaraq, prelüd özündə çox böyük məna daşıyır. Burada sağ əlin sual intonasiyasına hər iki əldə ifa olunan xoral ifadəli akkordlar cavab verir.

**Musiqi nümunəsi 3.**



Prelüdün birinci cümləsi tam piano ahəngində ifa olunub, ikinci cümlə cəmi altı xanədən ibarət olmasına baxmayaraq, burada hər xanədə dinamik yüksəliş baş verir. Pianoçu bu yüksəlişi mf – p – pp – ppp çox dəqiqliklə göstərir (mk.musiqi -dunya.az/performer-f- badalbeyli.html ).

F.Bədəlbəylinin ifasında op.16 silsiləsindən 5№li prelüd də özünəməxsusdur. Bu prelüd əvvəlkinin obraz baxımından tam antipodudur. Əgər 4-cü prelüd matəm obrazı ilə bağlıdırsa, 5-ci prelüd saf, işıqlı obrazları, xəyal və arzuları ifadə edir. Əsərin Fis-dur işıqlı tonallığı pastoral obrazlarla assosiasiya yaradır.

**Musiqi nümunəsi 3.**




Bu prelüddə bir qədər F.Şopen və R.Şumanın musiqi üslubunun təsiri görünür. Allegretto tempində ifa olunan Fis-dur prelüdü 24 xanədən ibarətdir, 3/8 ölçüdədir. Prelüd üçün *rubato* çalğısı səciyyəvidir.

Prelüdün fakturası özünəməxsus prelüd fakturası üzərində qurulur. Əsər bir növ improvizasiya xarakteri daşıyır. Lirik-poetik obrazın yaradılması üçün F.Bədəlbəyli maraqlı təfsirə çalışır. Melodiya sanki fortepiano fakturasının daxilində doğulur, bütün səslər melodikləşir və çoxtəbəqəli faktura yaranır. İfaçı fakturanın bu xüsusiyyətini çox məharətlə canlandırır, hər səs oxuyur. F.Bədəlbəylinin ifasında bu prelüdü dinlədikcə dinləyicinin qəlbində baharın işıq duyğuları oyanır. Hətta prelüd proqramlı olmasa da F.Bədəlbəylinin təfsirində ona “Bahar duyğuları” adını vermək olar.

Rus bəstəkarı A.Skryabinin yaradıcılığı Azərbaycanda fortepiano musiqisinin inkişafının çağdaş dönəmində də çox aktualdır. Əvvəldə qeyd etdiyimiz kimi “Prometey” (“Alov” poeması) əsəri 2019-cu ilin mart ayında Azərbaycan Dövlət Akademik Filarmoniyasında Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri tərəfindən Əməkdar artist Fuad İbrahimovun dirijorluğu ilə səslənmiş və bu ifada xalq artisti, professor Yeganə Axundova solist kimi, eləcə də Azərbaycan Dövlət Xor Kapellası (bədii rəhbər – Xalq artisti Gülbacı İmanova) çıxış etmişdir. “Prometey”in ifası zamanı filarmoniyada rəngarəng işıqlar salınmış, səhnənin divarlarında alov və şimşəyin çaxması təsvir olunmuşdur.

2019-cu ilin 31 iyul-5 avqust tarixlərində Qəbələdə keçirilən XI Beynəlxalq Musiqi Festivalında Skryabinin bu poeması Əməkdar incəsənət xadimi Fəxrəddin Kərimovun dirijorluğu ilə səslənmişdir (solist: Yeganə Axundova).

"Prometey" simfonik poeması Skryabinin fəlsəfi əsərlərindən biri olub, 1908-1910-cu illərdə bəstələnmiş və ilk dəfə 1911-ci ildə Moskvada işıq partiyası olmadan ifa edilmişdir. Bu birhissəli simfonik əsər, özündə həm də fortepiano konsert xüsusiyyətlərini daşıyır. Əsərdə royal solosu mühüm rol oynayır. Onu da qeyd etməliyik ki, ilk ifada fortepiano partiyasını Skryabin özü ifa etmişdir.

"Prometey"in fortepiano partiyası texniki baxımdan çox çətin və mürəkkəbdir. Məlum olduğu kimi, fortepiano partiyası bu əsərdə müəyyən məna daşıyır. Skryabin üçün fortepiano burada insan şəxsiyyətinin onu əhatə edən aləm, gerçəkliklə vəhdəti haqqında təsəvvür yaradır. Əsərdə fortepiano partiyasının belə mənalandırılması XXI əsrdə texnikanın inkişaf etdiyi bir şəraitdə maraqlı təfsirdə daha aydın şəkildə öz təzahürünü tapır. Pianoçu Yeganə Axundovanın "Prometey" simfonik poemasında ifa etdiyi gözəl, ahəngdar, virtuoz partiya, nəhəng partiturasının, işıq simfoniyasının özəlliyini parlaq şəkildə nümayiş etdirmişdir.

A.N.Skryabinin fortepiano musiqisi artıq bir əsrdən çoxdur ki, qəlbləri fəth edir. Vaxtilə bəstəkarın yaratdığı musiqi haqqında böyük uzaqgörənliklə dediyi fikirləri XXI əsrin üçüncü onilliyinin astanasında artıq təsdiqini tapmışdır: "Mən indi bəstələnən musiqidən tam fərqli bir musiqini təsəvvür edirəm. Onda elementlər, yəni, melodiya, harmoniya olacaq, amma bu tam başqa tərzdə özünü büruzə verəcəkdir".

Sənətdə daim yeni yollar axtaran novator bəstəkarın orijinal əsərlərinin daim gündəmdə olması onun musiqisinin əbədi yaşadığını göstərir.

Bütün bu məlumatları ümumiləşdirməklə və onları bəstəkarın musiqi estetikasının əsasları ilə əlaqələndirməklə yanaşı, Skryabinin fortepiano sənətinin aşağıdakı spesifik xüsusiyyətlərini müəyyən etmək mümkündür:

1.İfanın improvizasiya xarakteri.

2.Bəzən yüksək romantikanı anidən bir eniş təşkil edir.

3.Kiçik quruluşların təfsirində ritmik sərbəstliyin böyük quruluşların təfsirinin ritmik cəhətdən aydın formayaradıcı xüsusiyyətləri ilə birləşməsi

4.Temp improvizasiyası ilə metryaradıcı başlanğıcın birləşməsi. Burada temp yönəlmələrinə əsaslanan ritmin plastikasının üstünlüyü vardır.

5.Real fortissimonun olmaması və onun səsləniş vasitəsilə bir növ özünəməxsus ifadəsini yaratmaq –bu akkord ardıcıllığının gərginliyi ilə yaradılır.

6.f nüansının olmamasını pp nüansına doğru dinamik diapazonu genişləndirməklə bir növ kompensasiya etmək istəyirdi. Ümumiyyətlə, Skryabin musiqisi güclü səslənişə malik deyildi. Bəstəkar yaradıcılığının heç bir dövründə f səslənişinə meyl etməmişdir. Skryabin sanki aşağı səsləniş üzərində əsər yazmağı

(sotto voce) üstün tuturdu. Bu bəstəkarın fortepiano əsərlərinin əsas xüsusiyyəti idi. Dinamikaya olan belə meyl bir növ simvolistlər üçün xarakterik idi və bu xüsusiyyət Skryabin yaradıcılığında da müşahidə olunur.

7.Kulminasiya anının təxirə düşməsi və ziddiyyətli çalarların tez-tez dəyişməsi ilə dalğavari ritm dinamikası əldə olunur. Bu xüsusiyyət Skryabinin ifaçılığının əsas cəhətidir. Məlumdur ki, Skryabinin ifaçılıq fəaliyyəti 1910-15-ci illərə təsadüf edir. Bu qısa müddət olsa da, əhəmiyyəti çox böyükdür. Belə ki, bu dövrdə Skryabinin ifaedici vasitələri və üsulları ö qədər parlaq və orijinal idi ki, pianoçular və musiqi tədqiqatçıları indiyə qədər də həmin təfsir prinsiplərini açmağa çalışırlar.

**Ədəbiyyat siyahısı:**

1.Hüseynova K. Q. Musiqimizin Fərhadı. Bakı, Adiloğulu, 2007. 351s.

2.Seyidov T.M. XX əsrin Azərbaycan fortepiano mədəniyyəti: Pedaqogika, ifaçılıq və bəstəkarlıq yaradıcılığı. Bakı, Təhsil, 2016. 336 s.

3.Алексеев А.Д. История фортепианного искусства. Часть III. М.: Музгиз, 1962. 286 с.

4.Бэлза И.Ф. Александр Николаевич Скрябин. М.: Музыка, 1982.173 с.

5.Дельсон В.Ю. Скрябин. Очерки жизни и творчества. М.: Музыка, 1971. 430 с.

6.belcanto.ru/scriabin-ptometheus.html.

7.elibrary.sgu.ru/uch_lit/859.pdf.

8.mk.musigi-dunya.az/index2.html.

9.belcanto.ru/scriabin-notes.html

**Рафика Гулузаде**

## Интерпретация фортепианных произведений А.Н.Скрябина в репертуаре Азербайджанских исполнителей

**Резюме**: Представленная статья посвящена интерпретации фортепианных произведений выдающегося русского композитора А. Н. Скрябина в репертуаре азербайджанских исполнителей. Таким образом, была подчеркнута роль А.Ермолаевой и Н.Усубовой как пропагандистов произведений Скрябина в педагогическом репертуаре истории азербайджанской фортепианной школы. В исполнительском искусстве современного Азербайджана концертный репертуар народных артистов и выдающихся пианистов Ф. Бадалбейли и Е.Ахундова включает интерпретации фортепианных произведений Скрябина.

**Ключевые слова:** фортепианная музыка, исполнительство, Скрябин, Фархад Бадалбейли, Егана Ахундова

**Rafiqa Guluzade**

## Interpretation of A.N.Skryabin's compositions in the repertory of Azerbaijani performers

**Summary**: In this article attention is paid to the problems of interpretation of famous Russian composer A.N.Skryabin's piano compositions in the repertoire of Azerbaijani performers. The role of A.Yermolayeva and N.Usubova as propagandists of Skryabin`s compositions in pedagogical repertoire in the history of Azerbaijan piano school is emphasized in the article. In Azerbaijani contemporary performing arts piano compositions of Skryabin are in the concert repertoire of people's artists and famous pianists – F.Badalbeyli and Y.Akhundova.

**Key words**: piano music, performance, Skryabin, Farhad Badalbeyli, Yegana Akhundova.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 11. 10. 2021**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor Kamilə Dadaş-zadə**